# Erasmus+ Beynəlxalq Kredit Mobilliyi proqramında iştirak proseduru

## (Tələbələr üçün)

# Mündəricat


1. Mübadilə proqramına müraciət
   1.1 Tələb olunan sənədlər və onlara qoyulan əsas tələblər........................................1
   1.2 Müraciətçinin ilkin dəyərləndirilməsi mərhələsi..................................................2
   1.3 Müsahibə mərhələsi...................................................................................................3
2. Tələbələrin seçilməsi mərhələsi.....................................................................................4
3. Tələbələr seçildikdən sonrakı mərhələ
   3.1 Seçilmiş tələbələrin xarici universitetlə əlaqədə etməli olduqları...........................4
   3.2 Seçilmiş tələbələrin təhsil aldıqları universitetdə etməli olduqları..........................5
4. Mübadilə müddəti..........................................................................................................5
5. Tələbələr qayıtdıqdan sonrakı mərhələ.........................................................................6
6. Prosedurun ardıcıllıq diaqramı......................................................................................7

# 1. Mübadilə proqramına müraciət

## 1.1 Tələb olunan sənədlər və onlara qoyulan əsas şərtlər

Erasmus+ mübadilə proqramına müraciət edərkən tələb olunan sənədlər aşağıdakılardır:

a. **İngilis dili biliklərini sübut edən sənəd**
   Adətən IELTS və ya TOEFL sertifikatları tələb olunur. IELTS sertifikatının minimal qiyməti 6.0 olmalıdır. TOEFL sertifikatının qiyməti isə minimum 78 olaraq qəbul edilir.
b. **Akademik transkript**
   Akademik transkript tələbənin ilk semestrdən başlayaraq son bitmiş semestrə qədər göstəricilərini və bu təhsil müddəti ərzində onun orta qiymətini əks etdirən sənəddir. Sözü gedən akademik orta qiymətin minimal göstərici tələbi 75-dir. Akademik transkript hər bir tələbəyə dekanlıq tərəfindən 3 gün müddətində verilir.
c. **Motivasiya məktubu**
   Motivasiya məktubu tələbənin xarici universitetdə təhsilini davam etdirmək istəyini, motivasiyasını əks etdirən sənəddir. Motivasiya məktubuna qoyulan əsas tələblər onun lazımi strukturda, məzmunda yazılmasından ibarətdir. Motivasiya məktubu tələbənin özü tərəfindən və ingilis dilində yazılmalıdır. Məktubda müraciətçinin əlaqə vasitələri, elektron ünvanı mütləq əks olunmalıdır.
d. **Pasportun surəti**

***Qeyd etmək lazımdır ki, müraciətçilər yuxarıda qeyd edilən sənədləri son müraciət tarixinə kimi göndərməlidirlər. Bu məlumatlar isə universitetlərə müraciətlər elan olunduğu zaman universitetin sosial şəbəkələrində (feysbuk) elanlarda əks olunur.***

## 1.2 Müraciətçinin ilkin dəyərləndirilməsi mərhələsi

Müraciətçilər sənədlərini göndərdikdən sonra sənədlər Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşları tərəfindən dəyərləndirilir. Bu mərhələdə tələbənin sənədləri aşağıdakı şərtlərə əsasən qiymətləndirilir:

- İlk öncə müraciətçinin sənədləri nəzərdən keçirilir, sənədlərin tələblərə uyğunluğu yoxlanılır (1.1 tələb olunan sənədlər və onlara qoyulan əsas tələblər).
- Vacib tələblərdən biri də müraciətçinin sənədlərinin tamlığıdır. Hər hansı əksik sənəd müraciətin ləğv olunmasına gətirib çıxarır.
- Müraciətçinin ixtisasının müraciət etdiyi universitetdəki ixtisaslara uyğunluğu yoxlanılır. Müraciətçinin ixtisası uyğun olmadığı təqdirdə müraciət nəzərə alınmır.
- Sənədləri qaydasında olan müraciətçilər müsahibə mərhələsinə dəvət olunur.

## 1.3 Müsahibə mərhələsi

Müsahibə mərhələsində müraciətçilər Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşları tərəfindən müsahibə edilir. Müsahibə ingilis dilində həyata keçirilir. Müsahibə zamanı müraciətçinin ixtisası ilə bağlı bilikləri, ingilis dili bilikləri yoxlanılır, müsahibədə öz şəxsi keyfiyyətlərini,

müraciət etdiyi xarici universitetdə təhsil almaq istəyini, həmin mövqeyə uyğunluğunu, motivasiyasını ifadə etmə bacarıqları dəyərləndirilir.

# 2. Tələbələrin seçilməsi mərhələsi

Müraciətlərin dəyərləndirilməsi zamanı hər bir sənəd nəzərdən keçirilir və bu sənədlər hər biri eyni dərəcədə əhəmiyyətlidir. Eyni zamanda qeyd etmək lazımdır ki, müsahibə mərhələsi də müraciətçinin dəyərləndirilməsinin digər mərhələləri qədər önəm daşıyır. Müsahibə mərhələsindən sonra seçim proseduru tamamlanır və müvafiq namizədlər seçilir. Seçilmiş tələbələrin bütün sənədləri Erasmus+ koordinatoru tərəfindən müraciət olunan qəbul edən universitetin Erasmus+ koordinatoruna göndərilir və beləliklə namizədlər təsdiqlənir.

# 3. Tələbələr seçildikdən sonrakı mərhələ

## 3.1 Seçilmiş tələbələrin xarici universitetlə əlaqədə etməli olduqları

Seçilmiş tələbələrin sənədləri qəbul edən universitetin Erasmus+ koordinatorluğuna göndərildikdən sonra tələbələrlə birbaşa olaraq koordinator tərəfindən əlaqə yaradılır və tələbələr universitetə qəbul olmaları ilə bağlı rəsmi qısamüddətli qəbul məktubu əldə edirlər. Bu halda tələbələrin izləməli olduqları növbəti mərhələlər aşağıdakılardan ibarət olur:

### I. Elektron Müraciət

Qəbul edən universitet tərəfindən göndərilən elektron müraciət forması tələbələr tərəfindən tamamlanıb göndərilməlidir. Göstərilən elektron müraciət forması tələbə haqqında, onun təhsili, fəaliyyəti haqqında məlumatları, əlaqə vasitələrini əks etdirir.

### II. Viza üçün müraciətlər

Namizədlər elektron müraciəti tamamladıqdan sonra giriş üçün viza tələbi qoyulan ölkələrdə vizaya müraciətlərə başlamalıdırlar. Viza müraciət tarixindən etibarən 3-6 həftə müddətində verilir.

Vizaya müraciət edərkən viza növünün seçilməsi ilə bağlı məlumatları daha öncə qəbul edən universitetdən dəqiqləşdirmək vacibdir. Viza üçün vacib olan sənədləri isə ölkənin Azərbaycan nümayəndəliyinin (səfirlik) rəsmi səhifəsindən əldə etmək mümkündür.

Misal olaraq qeyd etmək olar ki, Böyük Britaniyada qısa müddətli təhsil vizası[1] üçün tələb olunan sənədləri aşağıdakı keçiddən əldə etmək mümkündür:

https://www.gov.uk/study-visit-visa/documents-you-must-provide

---

[1] Qısa müddətli təhsil vizası- əsasən 1 semestr ərzində təhsil almaq üçün Böyük Britaniya universitetləri tərəfindən qoyulan viza tələbidir.

### III. Yaşayış yerinin müəyyənləşdirilməsi

Namizədlər qəbul edən universitet tərəfindən təhsil müddətində yaşayış yerinin müəyyənləşdirilməsi ilə bağlı yönləndirilir. Bu elektron olaraq həyata keçirilir. Tələbələr getməzdən öncə qalacaq yerin istifadə üçün hazır olması üçün qalınacaq tarixlərlə bağlı məsul şəxsi məlumatlandırmalıdır.

Qeyd etmək lazımdır ki, yataqxana üçün öncədən bir aylıq ödəniş etmək tələb oluna bilər.

### IV. Fənlərin müəyyənləşdirilməsi

Eyni zamanda tələbə qəbul edən universitet tərəfindən göndərilən və həmin universitetdə keçiriləcək fənlərin müəyyənləşdirilməsi haqqında sənədi (learning agreement) tamamlayıb, göndərən universitetin koordinatoru ilə yenidən universitetə göndərməlidir. Bu sənəd növbəti semestrdə tələbənin qəbul edən universitetdə iştirak edəcəyi fənlərin təhsil aldığı universitetdə əvəzləyəcəyi fənlərlə və kreditlərlə uyğunluğunu əks etdirir. Bu mərhələdə mübadilə tələbəsi fakültə nümayəndələri ilə məsləhətləşməli və akademik borcun maksimum az qalması üçün fənlərin uyğunluğunu gözləməlidir.

## 3.2 Seçilmiş tələbələrin təhsil aldıqları universitetlə əlaqədə etməli olduqları

### Akademik məzuniyyət

Tələbələrdən qəbul edən universitetdən qəbulla bağlı sənəd əldə etdikdən sonra növbəti semestr üçün akademik məzuniyyət götürmələri tələb olunur. Bunun üçün tələbələr rektora ünvanlanmış ərizə yazmalı, akademik məzuniyyətin səbəbini və müddətini göstərməlidirlər. Bu müddət ərzində Beynəlxalq əlaqələr üzrə prorektor da rektora təqdimat ünvanlayır və həmin tələbələrə akademik məzuniyyət verilməsini təsdiq etməsini xahiş edir.

Tələbənin təhsil aldığı semestrdən və qəbul edən universitetdə təhsil müddətinin başlama tarixindən asılı olaraq son semestrdə tələbənin imtahan tarixləri qəbul edən universitetdə təhsilin başlanma tarixi ilə kəsişməməsi üçün irəli çəkilir.

# 4. Mübadilə müddəti

**Tələbələrin qəbul edən universitetdə fəaliyyəti**

### I. Qarşılanma

Qəbul edən universitet tərəfindən tələbələrin qarşılanması üçün öncədən tarixlər müəyyənləşdirilir, tələbələr bu tarixlər və digər təfərrüatlar haqqında öncədən məlumatlandırılır.

### II. Ödənişlər

Tələbələrin universitetin ilk həftələri ərzində həll etməli olduqları əsas məsələlərdən biri bank hesabının açılmasıdır. Bank hesabı açıldıqdan sonra müdadilə müddətində tələbələrə veriləcək məbləğin 80%-i və səyahət xərcləri öncədən heaba köçürülür, qalan 20% məbləğ isə mübadilə müddətinin sonunda hesaba köçürülür. Tələbənin səyahət xərcləri ilk dəfə tam, ikinci dəfə isə 20 % geri qaytarılır.

### III. İnzibati məsələlər

Tələbələr istənilən zaman qəbul edən universitetdə beynəlxalq əməkdaşlıq şöbəsinin Erasmus+ koordinatoru ilə əlaqə saxlaya, mübadilə ilə əlaqədar istənilən məsələni müzakirə edə bilərlər. Eyni zamanda ilk həftələr ərzində tələbələr fənlərin müəyyənləşdirilməsi ilə bağlı da akademik heyətə müraciət edə, uyğunluğu bir daha yoxlaya, lazım gəldikdə dəyişiklik edə bilər.

# 5. Tələbələr qayıtdıqdan sonrakı mərhələ

Tələbələr qayıtdiqdan sonra universitetdə mübadilə tələbələri, beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, beynəlxalq əlaqələr üzrə prorektor, tədris işləri üzrə prorektor və fakültə dekanlarının iştirakı ilə iclas keçirilir, fənlərin uyğunluğu yoxlanılır, bir daha müzakirə olunur, təsdiq olunan fənlər və tələbələrin ödəməli olduqları akademik borc müəyyən olunur.

İclasdan sonra beynəlxalq əlaqələr üzrə prorektor tərəfindən tələbələrin yekun nəticələri haqqında rektora təqdimat ünvanlanılır.

Eyni zamanda tələbələr tərəfindən onların akademik məzuniyyəti tamamlamaları və yenidən təhsillərinə davam edəcəkləri ilə əlaqədar ərizə yazılır.

Mübadilədən qayıtmış tələbələr BƏŞ tərəfindən göndərilən elektron sorğuda iştirak etməklə mübadilədə iştiraklarını tamamlayırlar.

# 6. Prosedurun ardıcıllıq diaqramı

**I**

- **Sənədlərin göndərilməsi**
- **Müsahibə**

**II**

- **Elektron müraciət**
- **Viza müraciətləri**
- **Yaşayış yerinin müəyyənləşdirilməsi**
- **Fənlərin müəyyənləşdirilməsi**
- **Akademik məzuniyyət üçün müraciət**

**III**

- **Qarşılanma**
- **Bank hesabının açılması**
- **İnzibati məsələlər**